**Əlili Allahverdi Elşən oğlu**
Azərbaycan Turizm və Menecment Universiteti
allahverdi.elili.1995@mail.ru

# TURİZM XİDMƏTLƏRİNDƏ KEYFİYYƏTİN MAHİYYƏTİ VƏ AZƏRBAYCANDA TURİZM SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİ VƏ POTENSİALI

***Açar sözlər:*** *turizm, turist, servis, keyfiyyət, infrastruktur, dövlət siyasəti, dövlət büdcəsi, iqtisadiyyat, məşğulluq*
***Key words:*** *tourism, tourist, service, quality, infrastructure, state policy, state budget, economy, employment*
***Ключевые слова:*** *туризм, турист, сервис, качество, инфраструктура, государственная политика, государственный бюджет, экономика, занятость*

## Giriş

Son dövrlərdə iqtisadiyyat sahəsində xidmətlərin əhəmiyyəti xeyli dərəcədə artmışdır. Bu, bir neçə amillə bağlıdır:

-istehsalın mürəkkəbləşməsi və gündəlik tələb olunan mallar ilə bazarın yüksək şəkildə təmin olunması;

-xidmətlər sahəsində yeni fəaliyyət sahələrinin yaranmasına səbəb olan ETT və s. Müasir dövrdə xidmətlər texniki baxımdan məhsulların satışının yüksək səviyyəli xidmət tələb edən əmtəə ticarətinə böyük təsir edir.

Hazırda dünyada birbaşa xarici investisiyaların 40%-dən çoxu bilavasitə xidmət sahəsinə qoyulur, inkişaf etmiş ölkələrin ÜDM-də xidmətlərin payı 70% dən artıqdır, eyni zamanda, xidmət sahəsində çalışanların sayı da gündən-günə artır və demək olar ki, yeni yaradılan iş yerlərinin artımının 80- 90%-i xidmət sahəsinin payına düşür. Xidmətlərin beynəlxalq səviyyədə satışında liderlik əsasən telekomunukasiya, maliyyə, informasiya, təhsil və 3 səhiyyə xidmətləri göstərən inkişaf etmiş Şimali Amerika, Avropa ölkələri, Yaponiya, Çin və Cənubi Koreya ölkələrinin payına düşür. Bu ölkələrin payına xidmətlərin beynəlxalq satışının 50%-dən çoxu düşür. İnkişaf etməkdə olan ölkələrin xidmətlərin beynəlxalq ticarətində xüsusi payı xeyli azdır, onların təklif etdiyi xidmətlər isə əsasən nəqliyyat, turizm və maliyyə (offşor) xidmətləri ilə bağlıdır. Hal-hazırda turizm sektoru ən sürətlə inkişaf edən sahələrdən birinə çevrilmişdir. Turizm sənayesinə hər gün milyardlarla dollar həcmində sərmayə yatırılır ki, bu da bu sahənin nə qədər inkişaf etdiyini göstərir. Turizmin inkişafının dövlət büdcəsinin formalaşması, yeni iş yerlərinin açılması, əhalinin gəlirlərinin artması, ölkənin dünyada daha da tanınması kimi istiqamətlərdə böyük əhəmiyyəti vardır. Azərbaycan dövləti tərəfindən turizm prioritet bir sahə seçilmiş və bu sahənin daha da inkişaf etdirilməsi məqsədilə bir sıra dövlət proqramları hazırlanmış, qanunlar qəbul edilmişdir. Bunların nəticəsi olaraq ölkənin turizm sənayesinə yerli və xarici investisiyaların axını başlamışdır.

## Turizmin mahiyyəti, xüsusiyyətləri, nəzəri-metodoloji əsasları.

Hər bir elmin özünəməxsus tarixi olduğu kimi, turizm sektorunun də özünəməxsus tarixi mövcuddur. Turizmin tarixi çox qədimdir, lakin hansı əsrdən başlanmağı dəqiq olaraq məlum deyil. Turizmin yaranması əsasən insanların qəbilə formasında yaşaması, ilk insan sivilizasiyalarının yaranması ilə əlaqədardır. İnsanlar minilliklər boyunca böyük çətinliklərlə yaşamaq uğrunda mübarizə aparmışdır. Bu yolda bir çox qurbanlar vermiş olsalar da öz ilkin mədəniyyətlərini yaratmışlar. Daş dövründən qalan qayalar üstündə rəsmlər, həmin dövrün arxeoloji tapıntıları buna əyani sübutdur.

Turizmin ilk tarixini 3 istiqamətində öyrənmək olar:

I istiqamət-təhsil məqsədilə edilən səyahətlər- görkəmli adamlarla görüşlər, tarixi mədəniyyət abidələri, qədim şəhərlər, incəsənət əsərləri ilə tanışlıqdır.

II istiqamət-keçmişin ictimai həyatı ilə bağlı olan dini mədəniyyət ocaqlarında ziyarətin təşkilidir.

III istiqamət-istirahət və sağlamlıq, idman mərkəzlərində səyahətin təşkil olunmasıdır.

Turizm bir fəaliyyət sahəsidir. Turizmin məqsədi sosial-iqtisadi inkişafa təsir göstərməklə bir sıra ərazi inkişaf problemlərini həll etməkdir. Turizmin mahiyyəti əsasən onun istehsal və təşkilati quruluşu, onun idarə edilməsi ilə formalaşır.Turizmin əsasları resurspotensial turizm məhsulu gəlirlərin formalaşması prinsipinə əsaslanır.

Onun inkişaf problemləri əsasən tarixi, iqtisadi problemlərlə bağlıdır. Turizmin inkişafı coğrafi, reqresiya və tarixi potensialına əsasən formalaşır. İqtisadi sistem, turizmin formalaşmasının sosial əsasıdır.

Hər bir ölkədə turistlərin xarakteristikası turizmin təşkilinin əsas amili rolunda çıxış edir. Turizm müəssisələri tərəfindən turistlərin tələbinə uyğun şəkildə təklif problemləri həll edilir.

Turizmin sosial-iqtisadi mənası çoxfunksiyalı, ümumi göstəricilərlə ifadə edilir. Onun məqsədi kommersiya gəlirləri əldə etmək, yerli məhsullardan istifadə edərək, əhalinin rifahı yüksəltmək üçün infrastrukturu inkişaf etdirməkdən ibarətdir. Turizm biznesin obyekti olaraq genişlənir. Sosial və iqtisadi inkişafın problemləri həmin resurslardan istifadə etməyin səmərəli təşkili və məşğulluğun artırılması məqsədlərinə uyğun olaraq təşkil edilir.

Turizmin uğurlu inkişaf etməsi onun iqtisadiyyata həm birbaşa şəkildə, həm də dolayı yolla təsirinin iqtisadi əhəmiyyətinin mənzərəsi ilə əlaqədardır. Turizmin birbaşa olaraq iqtisadiyyata təsir etməsi mövcud olan Milli Hesablar çərçivəsində dəyərləndirilir. Dolayı yolla turizmin iqtisadiyyata təsiri ölkə təcrübəsində qiymətləndirilmir.

Turizm inkişafı üzrə səmərəli olan tədbirlərin qəbul olunması, regional inkişaf strategiyasının hazırlanması, investisiya qərarlarının qəbul olunması üçün turizm sənayesinin ölkənin inkişafında payının qiymətləndirilməsi vacibdir.

Turizmin iqtisadi inkişafa təsir istiqamətlərinin qiymətləndirilməsinin müxtəlif metodikası mövcuddur. Bunlara aşağıdakıları missal göstərə bilərik:

1) Turizm sektorundan büdcəyə daxil olan gəlirlərin hesablanması. Turizmdən büdcəyə daxilolan ümumi gəlir dedikdə regionda və ölkədə turizmininkişafından əldə olunan birbaşa və yaxud dolayı və pul və yaxud da qeyri-pul mənfəətlərinin dəyər məcmusu başa düşülür. Hesablamaya iki istiqamət- region və ölkə iqtisadiyyatına turizmin birbaşa və həmçinin dolayı yolla təsirinin qiymətləndirilməsini daxildir.

2) turizmin multiplikativ səmərəsinin və regional iqtisadiyyatın digər sektorlarına təsirinin dəyərləndirilməsi. Multiplikativ səmərənin tam hesablanmasının təkmilləşdirilmiş metodikası mövcud deyil. Araşdırmalar göstərir ki, qeyd olunan metodika turizmin iqtisadiyyatda payının kifayət qədər qiymətləndirmə imkanlarına malik deyil. Multiplikativ metoddan istifadə olunması qarşılıqlı şəkildə olan əlaqələrin sadələşdirilməsini tələb edir. Bundan əlavə statistika təcrübəsində turizm sektorunun iqtisadiyyatda rolunu qiymətləndirməyə imkan yaradan turizm sahəsinin köməkçi hesablarından da istifadə olunur. Onların köməyi vasitəsilə qiymətləndirilir:

-turizm sektorunun ÜDM-da payı,
-turizm sektorunun iqtisadiyyatın digər sektorları arasında özünəməxsus yeri,
-turizm sektorunun inkişafı ilə əlaqədar olan iqtisadiyyatın müəyyən sektorlarında iş yerlərinin sayı,
-turizm sektoruna yönəldilmiş investisiyaların həcmi,
-turizm sektorundan büdcəyə vergi daxilolmları,
-turizmin tədiyə balansına göstərdiyi təsiri,
-turizm sektorunda işləyən insan resursları və s.

## Turizm xidmətində keyfiyyət.

Turizmdə keyfiyyət - turizm sahənin inkişafının ən aktual problemləri sırasındadır. Turizmdə xidmət keyfiyyəti rəqabət üçün ən güclü silahdır. Müəyyən ölkələrin restoranlarında, mehmanxanalarında xidmətdən razı qalan turistlər həmin məkanların fəal təbliğatçıları olurlar. Onların yenidən bu yerlərə baş çəkməsi burada turist axınının artmasına və bölgənin şöhrətinin daha da artmasına səbəb olur. Nəticə etibarı ilə xidmətin keyfiyyəti turizmin iqtisadi səmərəliliyini çoxaldır. Yüksək xidmət keyfiyyəti maddi imkanları yüksək olan müştərilərin cəlb edilməsi üçün mühüm şərait yaradır, bu da ölkəyə valyuta daxilolmalarının artmasında xüsusi rol oynayır və bir çox malları ixrac etməsinin vacibliliyini azaldır və həmçinin, insanların istehlak etdiyi əşyalarla təchiz edilməsinin yaxşılaşdırılması üçün əlverişli şərait mühiti yaradır.

Turizm xidmətinin keyfiyyət tərkibini açmaq üçün xidmət prosesinin özünün xarakterini aydınlaşdırmaq lazımdır. Geniş mənada turizm xidməti dedikdə, turistlərin daimi yaşadığı yerdən kənarda və səyahət zamanı xidmət mal alarkən və istehlak edərkən, onları müxtəlif rahatlıqla təminetmə fəaliyyəti nəzərdə tutulur.

Turizmdə yüksək xidmət keyfiyyəti, əhalinin turizm mərkəzlərində, səyahətlərdə, olmaqları, müxtəlif kurort tədbirlərində, əyləncələrdə iştirak etməsi insanların xərclərinin artmasına gətirib çıxarır. Yüksək formada xidmət keyfiyyəti, maddi imkanları yüksək olan müştərilərin cəlb edilməsi üçün əhəmiyyətli şərait yaradır, bu da ölkəyə valyuta daxilolmalarının artmasında əhəmiyyətli rol oynayır.

## Azərbaycanda turizm sektorunun mövcud vəziyyəti və potensialı.

Müasir dünyada turizm demək olar ki, hər bir ölkə üçün ölkənin iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biridir. Azərbaycanda da turizm sahənin inkişafına ciddi şəkildə diqqət göstərilir. Turizm

artıq dünyada gəlirli sahələrdən birinə çevrilmişdir. Turizm sektorunun davamlı şəkildə inkişaf etməsi bu sektoru sosial-iqtisadi inkişafda əsas aparıcı qüvvə kimi təqdim edir. Bu isə özünü yeni iş yerlərinin qurulması, turizmlə bağlı infrastrukturun və müəssisələrin yaranmasında göstərir.

Doğrudur, ölkəmizdə kifayət qədər geniş şəbəkəyə malik mehmanxana şəbəkələri fəaliyyət göstərir amma bu əhalisinin əksəriyyəti orta təbəqəyə aid olan dövlət üçün uyğundur desək yalan olar. Mehmanxana infrastrukturumuz qənaət bəxş olsada bucür turizm potensialı olan ölkə üçün kifayət deyildir. 596 mehmanxananın əksəriyyəti yəni 30%-i paytaxt Bakı şəhəridə daxil olmaqla Abşeron iqtisadi rayonun ərazisində və 17%-i Quba-Xaçmaz iqtisadi rayonunda toplanması daxili turizimimiz üçün heçdə yaxşı bir hal deyildir. İnfrastrukturun düzgün paylanmaması və mehmanxanaların təqdim etdikləri xidmələrə uyğun olmayan qiymətlər, mehmanxana sahəsində ixtisaslı kadr çatışmazlığı və mehmanxanalarımızın markentiq xərclərindən qaçaraq, "prestijli ərazi"ni əsas tutaraq əsasəndə paytaxt Bakı ərazisinə meyillilikləri hamsı bir yerdə ölkədə mehmənxana sektoruna mənfi təsir edir.

Son 10 ildə ölkəmizdə turizmin təşviqi ilə bağlı aparılan islahatlar, görülən işlər, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, qəbul edilmiş dövlət proqramları bir daha sübut edir. Həmin tədbirlər sayəsində ölkəmizdə turizm sənayesi yeni bir mərhələyə qədəm qoymuşdur, Azərbaycan dünyada yeni turizm istiqaməti olaraq tanınmağa başlamışdır, beynəlxalq turizm bazarına inteqrasiya ildən-ilə daha geniş şəkildə təmin edilir.

Azərbaycanda turizmin əksər növlərinin (müalicə-sağlamlıq, kənd, ekoloji, mədəni, kommersiya, sosial, dini, idman və s.) inkişaf etməsi üçün geniş imkanlar var. Son illər ərzində əldə edilmiş sosial-iqtisadi inkişaf bu sahənin hərtərəfli şəkildə inkişafına yeni imkanlar açmışdır. Azərbaycanda turizmin inkişafı üçün qarşıya qoyulmuş əsas məqsədlər kifayət qədər çoxdur:

-turizm ehtiyatlarının öyrənilməsi və genişləndirilməsi;
-turist tələbatının ödənilməsi üçün vacib olan xidmətlərin təşkili, müasir standartlara uyğunluğu;
-sanatoriya-kurort imkanlarının inkişaf etdirilməsi;
-mehmanxanaların və başqa obyektlərin sayının artırılması;
-turizm marşrutlarının artırılması və s.

**Azərbaycanda turizmin ölkə iqtisadiyyatının inkişafında rolu.**

Turizmin inkişaf etməsi ölkəyə həm iqtisadi baxımdan, həm də sosial tərəfdən müsbət təsir edir. İqtisadi baxımdan müsbət təsir onun gəlirli sahə kimi olması, ölkəyə əlavə olaraq gəlirin cəlb edilməsində böyük rol oynamasıdır. Sosial tərəfdən isə yeni iş yerlərinin fəaliyyətinə təkan verərək işsizliyi müəyyən qədər azaldır və yeni iş yerlərinin yaranmasına gətirib çıxarır. Sahibkarlığın inkişaf etməsinə imkan verir, turizm regionlarındakı ev təsərrüfatlarının yaranmasını təmin edir. Turizm sektorunun iqtisadiyyatdakı rolu ölkənin beynəlxalq əlaqələrindəki xüsusi çəkisi ilə müəyyənləşdirilir. Azərbaycanda iqtisadi potensialına əsasən turizm ilk yerlərdədir və onun inkişafı hələ də lazımı səviyyədə deyil. Turizmin inkişafdakı rolu istehlak və istehsal istiqamətində inkişaf edir. Turizmdən gələn gəlirlər dövlət gəlirlərinin, əhalinin və sahibkarların gəlirlərinin tərkib hissəsidir. Bu səbəblərə görə də ölkədəki turizm iqtisadi və sosial potensialın inkişafına, idarə olunmasına təsir edir.

Azərbaycanda turizmin inkişaf etməsi sosial-iqtisadi sahələrin inkişaf etməsinin əsas istiqamətlərinə əsasən planlaşdırılır. Həmin istiqamətlərdən bir neçəsini baxaq:

- Turizmin inkişafında ölkəyə gətirilən, həmçinin, ölkədən çıxarılmış maliyyə resurlarının qiymətləndirilməsi ölçülür.
- Turizm sahəsində sahibkarlığın inkişaf etməsi, kapital axınının yeni müəssisələrin açılmasına cəlb olunması, regionların inkişaf etməsinin əsas hədəflərdən biri olaraq seçilməsi turizmin inkişafında qarşıya qoyulmuş əsas məqsədlərdən biridir.
- Turizmin inkişaf etməsi üçün bu sahəyə təsir göstərən istehsal və xidmət sferasının inkişafı, infrastrukturun qurulması, turizmin sektorunda yerli mütəxəssislərin sayının artırılması, təhsil səviyyəsinin inkişaf etdirilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir.
- Turizmin inkişaf etməsi ölkədəki bank sisteminin, həmçinin, nağdsız ödənişlərin və sığorta sisteminin, tranzit sahədə dünya standartlarına doğru yüksəlməsinə gətirib çıxara bilir.
- Turizm sektorunun inkişafı səhiyyə, təhsil və digər xidmət sferasının inkişafına da imkan verir.

**Nəticə**

Turizm insanların istirahətinin təşkilinə böyük töhfə verən, onların sağlamlığının möhkəmlənməsində vasitəçi rolunu oynayan sahədir. Yüksək xidmətdən razı qalmış turistlər olduğu yerlərin yaxşı təbliğatçılarına çevrilirlər. Çoxsaylı araşdırmalar göstərir ki, turistlərin əksəriyyətinin hər hansı bir regiona və ya

ölkəyə gəlməkləri, orada olan xidmət səviyyəsinin özləri tərəfindən qiymətləndirilməsinə və yaxud da tanışlarının çəsləhətlərinə əsasən baş verir.

Turizm idarəetmə obyekti olaraq turizm məqsədinə, onun əsas təşkilati quruluşuna və kadr potensialına əsaslanır. Turizmin idarəçiliyi turistlərin motivitasiyasiya əsasında qurulur. Bu baxımdan da hər bir turizm müəssisəsində turistlərin rəyi, seçimi öyrənilir, onların sosial statusu sosial demoqrafik tərkibi ilə müqayisə olunur, bu idarəetmədə aparıcı motiv seçilir. Turistlərin ölkəyə axını potensial turist axınını qiymətləndirməyə imkan verir.

Turizm potensialı bir nəfərə düşən maddi məsrəflərin və kadrların sosial xarakterləri ilə öyrənilir. İdarəetmə səmərəsi cari, perspektiv resurların istifadəsi və onların ehtiyatlarının artımı ilə müəyyənləşdirilir.

Azərbaycanda Strateji Yol Xəritəsi nəzərdə tutulmuş zaman ərzində turizmin inkişafının dəstəklənməsi, yerli və beynəlxalq bazarlarda keyfiyyətli, rəqabətə davamlı olan turizm xidmətlərinin təmin olunması, milli dəyərlərə uyğun şəkildə turizm təcrübəsinin formalaşdırılması, innovasiyalara əsaslanan investisiya layihələrinin cəlb olunması və turizmin inkişafı ilə bağlı aidiyyəti orqanların qarşılıqlı şəkildə koordinasiyası kimi bir çox tədbirləri özündə ifadə edir. Turistlərin razılığının artırılması ilə bağlı milli turizmin keyfiyyət sisteminin yaradılması özündə turizm sektorunda təhsil proqramlarına investisiya qoyuluşunu və turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsini ehtiva edir. Hal- hazırda tətbiq edilən turist xidməti keyfiyyətinin və idarə olunmasının qiymətləndirmə sistemi, müasir şəraitdə hələlik ən optimal və yararlıdır.

Azərbaycanda turizmin inkişafı haqqındakı dövlət proqramında turizmin inkişaf etdirilməsinə təminat yarada bilən maddi bazanın yaradılmasına və turizm sektorunun proporsional şəkildə inkişafının təmin olunmasına, müasir tələblərə cavab verə bilən sistemin formalaşdırılmasına və b. fəaliyyət istiqamətlərinin genişləndirilməsinə və inkişafına xüsusi diqqət yetirilir.

2016-cı il Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsindədə bu məsələyə kifayət qədər önəm və yer verilmiş: Ölkədəki və regiondakı mövsümi turizm problemlərini azaltmaq üçün əsas məqsəd olaraq işgüzar və saglamlıq turizmin regionlarda və paytaxda inkişafını əsas prioritetlərdən biri olaraq müəyyən etmişdir. Bu həm mövsümilik həmdəki məşğulluq probleminin həlli nəzərdə tutulmuşdur. Bu perspektivli turizm növünə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər arasında görüşlər, konqres və konfranslar, ticarət və ya elmi-texniki əməkdaşlıq məsələləri üzrə yığıncaqlar, təbliğat-təşviqat tədbirləri ilə bağlı səfərlər, habelə beynəlxalq sərgilərdə və yarmarkalarda iştirak kimi səyahət məqsədləri daxil edilir. Bu məqsədlə əsasəndə regionlarda olan mehmanxanalara konfras mərkəzlərinin, iclas zallarının həm kəmiyyət həmdə keyfoyyət cəhətdən artirilmasıdır. İşgüzar turimimizin inkişaf etdirilməsi məqsədi ilə Qərbi Avropa ölkələri, RF, Çin kimi biznes sahesində inkişaf etmiş ölkələrdən turistlərin cəlb edilməsi düşünülür. Qeyd edimki ölkəmizə turizm məqsədi ilə gələnlərdən sadəcə 15 %-i işgüzar turizmin payına düşür. Bu sahədə əsas problem olaraq qeyd edilən ölkələrdən paytaxt və regionlara səyahət maşrutlarının az və ya heç olmamasıdır. Ümumulikdə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi ölkəmizdə əsas turizm məqsəd və problemlərinin 2025 ci ilə qədər qarşıya qoyulmuş hədəflərin icrası ilə həll olunacağı proqnozlaşdırılır.

Bunları nəzərə alaraq deyə bilərik ki, dövlət proqramı aşağıda göstərilən vəzifələrin həyata keçirilməsini məqsəd olaraq qarşıya qoyur:

-Turizm sektorunun hərtərəfli formada inkişafı üçün kiçik, orta sahibkarlığa geniş şəkildə səlahiyyətlərin verilməsi;

-Turistlərə xidmət göstərən obyektlərin yenidən qurulması və onu dünya standartlarına uyğunlaşdırılması;

-Respublikanın daxili və beynəlxalq turizm bazarında rəqabət aparmaq qabiliyyətinin artırılması;

-Turizmin inkişafı üçün daha mütərəqqi, səmərəli şəkildə metodlardan istifadə edilməsi və s.

## Ədəbiyyat:

1.B.Bilalov " Turizm fəaliyyətinin tənzimlənməsi". Bakı, 2006 s. 208
2.B. Bilalov "Turizmin menecmenti". Bakı, 2005 Mütərqim
3.Ə.Əlirzayev, S.Aslanova "Turizmin inkişafının sosial, iqtisadi problemləri". Bakı, 2006
4. Ə.Q. Əlirzayev "Turizmin iqtisadiyyatı və idarəedilməsi" Bakı 2011
5. UNWTO Tourism Highlights: 2014 edition // United Nations World Tourism Organization, 2014
6.Vugar Dargahov, Rovshan Karimov " Investment opportunities of tourism Industry in Azerbaijan and its regions"- European International Journal of Science and Technology, September 2014

7. Measuring Employment in the Tourism Industries, UNWTO Publications, 2013
8. www.unep.org-“Economic impacts of tourism”
9. www.unwto.org - World Tourism Organization
10. https://economy.gov.az
11. https://www.stat.gov.az

**Certificate of quality in tourism services and situation of the tourism sector in Azerbaijan and potential**

**Summary**

The article provides theoretical and methodological basis of tourism, the influence of tourism in the development of national economies, the essence of services provided in the tourism sector, factors affecting it, the tourism situation in Azerbaijan and the work done in this area.

**Сертификат качества в сфере туризма и ситуация и потенциал сектора туризма в Азербайджане**

**Резюме**

В статье представлены теоретические и методологические основы туризма, влияние туризма на развитие национальной экономики, сущность услуг, оказываемых в сфере туризма, факторы, влияющие на него, туристическая ситуация в Азербайджане и работа, проделанная в этой области.

**Rəyçi: prof.Y.Həsənli**